UOT 94(479.24)

GÜLŞƏN HÜSEYNOVA
Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Hərb Tarixi Muzeyində şöbə rəisi, t.ü.f.d.
yupiter57@mail.ru

TAM SÜVARİ GENERALI HÜSEYN XAN NAXÇIVANSKİNİN İCTİMAİ FƏALİYYƏTİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/110/59-64

Məqalə tam süvari generalı Hüseyn xan Naxçıvanskinin həm Rusiya imperiyasında, həm də doğma vətəni Naxçıvanın ictimai-siyasi həyatında rolu, eləcə də xeyriyyəçilik fəaliyyəti mötəbər mənbələr və elmi ədəbiyyat əsasında hərtərəfli şəkildə işıqlandırılmışdır. Hüseyn xan Naxçıvanski yalnız görkəmli bir hərbi xadim deyil, eyni zamanda dərin intellektə malik nüfuzlu ictimai xadim kimi də tanınmışdır. Onun dinə münasibəti və yanaşma tərzi də olduqca diqqətəlayiqdir. Yaşadığı və fəaliyyət göstərdiyi mühitdə xristian dininə mənsub insanların sayca üstünlük təşkil etməsinə baxmayaraq, o, bütün dinlərə qarşı tolerant və ədalətli münasibəti ilə fərqlənmişdir. Tabeliyində olan müxtəlif dinlərə mənsub əsgər və zabitlərə eyni hörmət və qayğı göstərmiş, dini və mənəvi dəyərlərə həssaslıqla yanaşaraq, heç bir ayrı-seçkiliyə yol verməmişdir. Bu baxımdan, Hüseyn xan Naxçıvanskinin ictimai fəaliyyətinin elmi cəhətdən araşdırılması, onun yaşadığı dövrün ictimai-siyasi mənzərəsini dərindən dərk etmək və bu tarixi reallıqları müasir dövrlə müqayisə etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: çar Rusiyası, Naxçıvanskilər, Hüseyn xan Naxçıvanski, leyb-qvardiya süvari alayı, Müsəlman Xeyriyyə Cəmiyyəti.

Giriş. Məlumdur ki, xalqımız tariximizin tərkib hissəsi olan hərb tarixinin müxtəlif dövrlərində öz fəaliyyəti ilə seçilmiş hərbi xadimlərimizin bir çoxu haqqında ətraflı məlumata malikdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda mükəmməl hərbi təhsil almış, yüksək peşəkarlıq qabiliyyətinə və hərbi istedada malik bir sıra sərkərdələrimiz formalaşmışdır. İstər çarizm, istərsə də Cümhuriyyət və sovet dövrü tariximizdə Azərbaycanın gələcəyi naminə əvəzsiz xidmətləri olan və hünərləri ilə tarixə adlarını yazmış bir sıra layiqli hərbçilərin işi, onların hərbi və ictimai sahədə fəaliyyəti, xeyirxah əməlləri hələ də lazımınca tədqiq olunmamış və ya qismən tədqiq olunmuşdur. Bu baxımdan hərbi şəxsiyyətlərimizin tarixdə rolu araşdırılarkən tarixi obyektivlik mütləq qorunmalı və hadisələrə həmin dövrün gözü ilə, həmin dövrün dəyər və həqiqətləri prizmasından baxılmalıdır.

Azərbaycanda hərb sənətinin inkişafında böyük xidmətləri olan hərbi şəxsiyyətlərimiz içərisində Kəngərli kimi böyük və əzəmətli Azərbaycan türk elinin nümayəndəsi, Naxçıvanskilərin dördüncü nəslini təmsil edən tam süvari generalı, çarın yaveri kimi yüksək titula, rütbəyə, mənsəbə layiq görülmüş ilk və son müsəlman hərbçi, görkəmli hərbi xadim, sözün əsl mənasında şərəfli sərkərdə ömrü yaşamış Hüseyn xan Kalbalı xan oğlu Naxçıvanskidir. Hərb sənətinin sirlərini dərindən və hərtərəfli bilməsi, həmçinin bununla yanaşı cəmiyyətin ictimai həyatında da fəallığı ilə məşhurlaşaraq ciddi nüfuz sahibinə çevrilmiş Hüseyn xan Naxçıvanskinin bu yöndəki fəaliyyətinə diqqət son 10 ildə daha da artmış və bu fəaliyyət ciddi maraq obyektinə çevrilmişdir.

Tam süvari generalı Hüseyn xan Naxçıvanski təhsil aldığı və uzun illər hərbi karyerasını davam etdirdiyi çarın leyb-qvardiya süvari alayında Rusiyanın nəinki təhlükəsizliyinin təmin olunması, rifahı naminə ona tapşırılan mühüm və ciddi vəzifələrin yerinə yetirilməsi ilə məşğul olmuş, həmçinin bu ölkənin ictimai həyatında da yaxından iştirak etmişdir.

Alayın komandiri vəzifəsində işlədiyi müddətdə şəxsi heyətin nizam-intizamı və döyüş qabiliyyətinin yüksəldilməsi ilə bağlı gördüyü işlərlə yanaşı Hüseyn xana çarın əmri ilə 1900-cü ildə leyb-qvardiya süvari alayının daxilində yaradılmış muzeyin yenidən komplektləşdirilməsi kimi mühüm və məsuliyyətli vəzifə tapşırılır [2, s.109-110]. Ona həvalə olunan və bilavasitə xidməti vəzifələri siyahısına daxil olmayan bu tapşırığın yerinə yetirilməsini məmnuniyyətlə qəbul edən Xan Naxçıvanski süvari alayının 200 illik tarixini bütövlüklə və dəqiqliklə əks etdirmək, həmçinin alayda xidmət edən

hərbçilərin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə maraqlı ekspozisiya təşkil etmək üçün hazırladığı plan əsasında işə başlamışdır. Alayın uzun və zəngin tarixini əks etdirəcək muzeyi tamamilə yeni tərzdə təşkil etməyi düşünən Hüseyn xan onun tamaşaçıya mənəvi təsirini, xüsusilə gənc nəsildə vətənpərvərlik, hərb elminə və hərbçiyə məhəbbət hisslərini formalaşdırmağı qarşısına məqsəd qoyaraq öz işini bütün incəliklərinə qədər dəqiqliklə həyata keçirməyə səy göstərirdi. Bu missiyanın öhdəsindən şərəflə gələn Xan Naxçıvanski ilk öncə mühafizə olunan eksponatların siyahısını tərtib edir və muzeyin yeni eksponatlarla zənginləşdirilməsi üçün xüsusi əmr hazırlayır. İmzalanan bu əmr əsasında alayın tabeliyində fəaliyyət göstərən batalyonlarda xidmət keçmiş şəxsi heyətdən xeyli miqdarda sənədlər, medallar, arayışlar, onlar tərəfindən hədiyyə qismində təqdim olunan rəsm əsərləri, xatirə əşyaları və müxtəlif qoşun növlərinə məxsus geyim nümunələri əldə edilmişdir. Bütün bu qiyməti olmayan unikal və qədim tarixə malik əşyalar alayın keçmişini özündə əks etdirən layiqli eksponatlar idi.

Hüseyn xan Naxçıvanski qısa bir müddət ərzində leyb-qvardiya süvari alayının tarixini özündə əks etdirən gözəl bir muzey yaratdı. Onun zəhmətinin bəhrəsi olan bu möhtəşəm muzeyə çar II Nikolay da böyük diqqət və hörmətlə yanaşmış, keçmişi əşyalarda yaşatmağı bacaran bu ləyaqətli insanın zəhmətini daim qiymətləndirmişdir. Çar bu muzeydə mühafizə olunan eksponatların daha da zənginləşdirilməsi məqsədi ilə özü də buraya bir neçə dəyərli əşya təqdim etmişdir. Bu əşyalar içərisində onun dövründə yaşamış heykəltəraş Lodt tərəfindən hazırlanmış, həmin dövrə məxsus süvari alayının oberzabit, ştandart, təbilçi və unter zabit rütbəsində olan şəxslərin heykəlləri ilə bərabər geyim nümunələri də xüsusilə maraqlıdır [2, s.111].

Hüseyn xan tərəfindən özünəməxsus zövq və dəqiqliklə hazırlanaraq geniş xalq kütlələrinin ixtiyarına verilən bu muzeydə leyb-qvardiya süvari alayının keçdiyi döyüş yolu tamaşaçıya canlı şəkildə təqdim edilirdi.

General Hüseyn xan Naxçıvanskinin ictimai fəaliyyəti bununla bitmir. Leyb-qvardiya süvari alayının Krasnoye Selo bölgəsinin Aleksandrovskaya qəsəbəsində yerləşən yay düşərgəsində pravoslavlar təriqətinə mənsub dini mərasimlərin keçirilməsi, həmçinin alayda xidmət edən əsgər və zabitlərin boş vaxtlarında dini ibadətlərini yerinə yetirmək üçün kilsənin inşa edilməsi məhz əslən müsəlman dininə sitayiş edən bu görkəmli şəxsiyyətin adı ilə bağlıdır. Hüseyn xanın müsəlman dininə qulluq etməsinə və Sankt-Peterburqda Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmasına baxmayaraq Allah tərəfindən göndərilmiş digər səmavi dinlərə sitayiş edən insanlara qarşı da böyük hörmət və ehtiramla yanaşması onun daxili mədəniyyətinin və yüksək keyfiyyətlərinin göstəricisidir.

Alayın şəxsi heyətinin mənsub olduğu dinin tələb etdiyi vacibatları yerinə yetirməsində mövcud çətinliklərin olmasına diqqət yetirən Hüseyn xan bir rəhbər kimi Krasnoe Selo bölgəsinin Aleksandrovskaya qəsəbəsində balaca bir kilsənin tikilməsi üçün çar II Nikolaya müraciət edir. Onun bu təklifi çar və eləcə də komandirlik etdiyi alay tərəfindən çox yüksək qiymətləndirilmiş, bəyənilmiş və dəstəklənmişdir. Xan Naxçıvanskinin rəhbərliyi altında bu kilsə tikintisinin həyata keçirilməsinə çar II Nikolayın sərəncamı əsasında 2500 rubl məbləğində pul vəsaiti də ayrılır. 6 avqust 1907-ci ildə çar, onun ailə üzvləri, həmçinin Hüseyn xan başda olmaqla alayın bütün komandanlığının ailə üzvlərinin də iştirakı ilə özülü qoyulan bu ibadətgahın təntənəli açılışı 10 iyul 1909-cu ildə baş tutmuşdur [2, s.112]. Hüseyn xanın yaşadığı illər ərzində ictimai fəaliyyətinin ən parlaq və yaddaqalan addımlarından biri olan bu iş onu bütün Rusiyada məşhurlaşdırmışdır.

Hüseyn xan Naxçıvanski XIX əsrin sonu - XX əsrin əvvəllərində Sankt-Peterburqda fəaliyyət göstərmiş Müsəlman Xeyriyyə Cəmiyyətinin də üzvü kimi Rusiyada yaşayan müsəlmanların rifahının yaxşılaşdırılması sahəsində mühüm işlərə imza atmışdır. Cəmiyyət kasıblara əl tutur, qocalara himayədarlıq edir, kasıb ailələrin övladlarına təhsil verir və digər sahələrdə fəaliyyət göstərirdi. Hətta o dövrdə böyük quruculuq işləri ilə məşğu olan, Bakı Şəhər Dumasının üzvü xeyriyyəçi və milyonçu Hacı Zeynalabdin Tağıyev də bu cəmiyyətin daimi üzvü seçilmiş, təkcə Azərbaycanda deyil, Rusiyanın çoxmilyonlu müsəlman əhalisinə köməyini əsirgəməmişdir. O, Rusiyada yaşayan müsəlmanların xeyrinə cəmiyyətə 11 min rubl ianə bağışlamış, həmçinin Sankt-Peterburqda məscid, Moskvada yaşayış evi və ticarət müəssisələri də tikdirmişdir [19;20].

Tam süvari generalı Hüseyn xan Naxçıvnski də 1899-cu ildən etibarən bir neçə il cəmiyyət sədrinin yoldaşı (müavini) vəzifəsində çalışaraq təşkilatı işlərdə fəal iştirak etmişdir. Rusiya Dövlət Hərb Tarixi Arxivində mühafizə olunan Sankt-Peterburqun ünvan və sorğu kitabında Müsəlman xeyriyyə

cəmiyyəti haqqında qeydlər göstərilir. Burada cəmiyyətin fəaliyyət göstərdiyi ünvan, telefon nömrəsi və tərkibi qeydə alınmışdır. Ünvan və sorğu kitabından əldə etdiyimiz məlumatlarda göstərilir:

Bütün Peterburq 1899-cu il.

Müsəlman Xeyriyyə Cəmiyyəti. S.Peterburq. (Mitninskaya, 1).

Sədr: Sultan Vəli xan İsgəndər

Sədrin yoldaşı (müavini): rotmistr Xan Naxçıvanski

Üzvləri: Maksudov A.M., Smolski D.S.

Katib: leytenant İslamov İsaak İbrahim oğlu [7; 17].

Ünvan və sorğu kitabının 1901-ci ilə aid nəşrinin 1664-cü sütununda qeydə alınıb:

Müsəlman Xeyriyyə Cəmiyyəti. (Qlazovaya, 14)

İdarə heyəti: Sədr: leytenent İslamov İsaak İbrahim oğlu

Sədrin yoldaşı (müavini): rotmistr Xan Naxçıvanski

Üzvləri: Alim Mirzə Maqsudov, molla Yunusov Məhəmməd Zarif oğlu, həkim Hüseyn Maqsudov

Xəzinədar: dövlət katibi Smolski Davlad Suleymanoviç

Katib: Kuramşin Raul İsmayıl oğlu

Təftiş komissiyasının üzvləri: Jantiyev Adil, Bezurko Aytbakin, Temur-Tali Durmanoviç

Namizədlər: Sankt Peterburqun İmperator Universitetinin mühazirəçisi Baratinski İlyas Murza oğlu, Cəfərov N [8].

1902-ci ildə Cəmiyyətinin sədri vəzifəsində leytenent İslamov İsaak İbrahim oğlu, sədrin yoldaşı vəzifəsində isə yenə rotmistr Xan Naxçıvanski çalışmışdır [9].

1903-cü ildə çap olunmuş Sankt Peterburqun ünvan və sorğu kitabının 1714-cü sütununda cəmiyyətin Stremyannaya 15 ünvanında yerləşdiyi qeyd olunur. Cəmiyyət əvvəlki tərkiblə fəaliyyət göstərirdi [10].

Müsəlman Xeyriyyə Cəmiyyəti 1907-ci ildən 1910-cu ilədək fəaliyyətini həmin tərkibdə Sankt Peterburq şəhəri, Demidov döngəsi, 4-də davam etdirmişdir [11;12;13;14].

1917-ci ildən öz fəaliyyətini Sankt Peterburq şəhəri, Nevski prospekti 40-da davam etdirən cəmiyyət üzvləri arasında Xan Naçıvanskinin adına rast gəlinmir. Sənəddə cəmiyyətin telefon nömrəsi də (144-80) qeyd edilmişdir [15]. Hüseyn xan Naxçıvanski I Dünya müharibəsi cəbhələrinə yollandıqdan sonra onun bu cəmiyyətdəki fəaliyyətinə xitam verilmişdir.

Arxiv sənədlərindən də göründüyü kimi Hüseyn xan doğma Vətəndən kənarda yaşasa da öz dininə hər zaman hörmətlə yanaşmış, bu dindən olan insanların da yaxşı yaşaması üçün əlindən gələni etmişdir.

Ömrünün böyük bir hissəsini Vətəndən kənarda yaşayıb-yaradan Hüseyn xanın hərbi və ictimai fəaliyyəti birbaşa Rusiya ilə bağlı olsa da, o hər zaman Azərbaycan və onun tərkib hissə olan Naxçıvanla əlaqəni kəsməmiş, burada ictimai sahədə böyük işlər görmüşdür.

Hüseyn xan uzun illər başqa dövlətin ordusunda xidmət etməsinə baxmayaraq doğulduğu Naxçıvan torpağını heç vaxt yaddan çıxarmır, ata-baba yurdunda yaşayan qohumları ilə daim ünsiyyətdə olur və atasından ona miras kimi qalan mülk qismində torpaqların əkib-becərilməsi, həmçinin Naxçıvanda və İrəvanda əkib-becərilməkdən məhrum olan torpaq sahələrinin gəlmə ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq məqsədi ilə qardaşlarına bu torpaqların əldə edilməsi üçün maliyyə vəsaiti ilə yardım göstərmişdir [3].

Hüseyn xan doğma Naxçıvanda da ictimai fəaliyyət ilə məşğul olmuşdur. Bu baxımdan onun 1912-ci ildə qardaşı Cəfərqulu xanla birlikdə İrəvan quberniyası və Qars vilayətinin Dövlət əmlakı idarəsinə və Qars vilayətinin əkinçilik idarəsinə yazdığı xahişnamələri olduqca maraqlıdır [1].

Rusiyanın Qafqazı işğalından sonra xan və bəy nəslindən olan ailələrin imtiyazları azaldılır, onlardan kəsilərək alınan torpaqlardan öz mənafeləri üçün istifadə edirdilər. Bu torpaq sahələrinin bir qismində rus köçkün qəsəbə və kəndləri yaradılır, digərləri isə Naxçıvana köçürülmüş ermənilərə yaşayış yeri kimi verilirdi. Bütün bunları nəzərə alan polkovnik Hüseyn xan qardaşı Cəfərqulu xanla birlikdə İrəvan quberniyasının Naxçıvan qəzasında meşə idarəsinin torpaqları sayılan, 3713 desyatin 1360 kv sajen sahəsi olan "Qaraçuq" adlanan ərazini əkib-becərmək məqsədi ilə icarəyə götürmək üçün İrəvan quberniyasının əkinçilik və torpaq quruculuğu üzrə rəisi ştabs-kapitan Krivoşienə xahişnamə ünvanlamışdır. Xahişnaməyə Qaraçuq bağının planı əlavə olunmuş və çarın yaveri general-mayor

Hüseyn xan Naxçıvanski və istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanski tərəfindən imzalanmışdır [5, v.17-18].

1912-ci il fevralın 21-də Qafqaz canişinliyi Əkinçilik və Torpaq quruculuğu üzrə idarəsinin müvəkkili 1561 №-li məktubla sözügedən xahişnamədə göstərilən məsələ haqqında münasib qərar qəbul etmək üçün həmin məktubun surətini İrəvan quberniyasının və Qars vilayətinin əkinçilik və dövlət əmlakı idarəsinə göndərmişdir [5, v.1,3-6].

Xahişnamə 1912-ci il martın 5-də İrəvan-Qars Əkinçilik və dövlət əmlakı idarəsinin baş nəzarətçisi, 1912-ci il aprelin 6-da isə Naxçıvan Meşəçilik İdarəsinin meşəbəyisi tərəfindən nəzərdən keçirilmiş və İrəvan Əkinçilik və Dövlət Əmlakı İdarəsinə məruzə edilmişdir [1].

Məktubda deyilir: "....Bu məsələdə mənim üzərimə düşən vəzifə xanların şəxsi mənfəətlərini nəzərə almadan bu təşəbbüsün xəzinə üçün nə qədər yararlı olub-olmayacağını yoxlamaqdır. Buna görə də Siz həzrətlərə çatdırıram ki, bu təşəbbüs yalnız xanlara xeyir gətirəcək, xəzinəyə isə xeyri olmayacaq. Bunları demək üçün əlimdə əsaslarım var və bu əsasları mən 15 dekabr 1904-cü il və 4 fevral 1905-ci il tarixli 13 saylı məruzələrimdə bildirmişəm və bunlara artıq heç nə əlavə edə bilmərəm.

Buna görə xahiş edirəm məruzələrlə dərindən tanış olasınız, məni və meşəbəyi cənab Arxipovu bu məsələnin müzakirəsindən azad edəsiniz. Baş nəzarətçi: (imza)" [5, v.1,3-6].

Çarın yaveri general-mayor Hüseyn xan və qardaşı istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskilərin xəzinənin ixtiyarında olan "Qaraçuq" torpağının onlara uzunmüddətli icarəyə verilməsi haqqında xahişnaməsinə cavab olaraq İrəvan-Qars Dövlət əmlakı Idarəsinin baş nəzarətçisinin yazdığı bu cavab məktubu çar Rusiyasının yerlərdəki idarəçiliyinin yerli müsəlman əhalisinə qarşı nə qədər qəddar və ögey münasibətinin və onlara qarşı sərt qaydaların tətbiq edildiyinin əyani sübutudur. Öz torpağımızda yad ünsürlü qüvvələrin ağalığı nəticəsində əkib-becərməyi belə əcnəbi məmurlardan icazə almağımız şərti nə qədər də acı verici bir faktdır.

Çarın yaveri general-mayor Hüseyn xan və qardaşı istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskilərin Əkinçilik və torpaq üzrə rəis ştabs kapitan Krivoşienə yazdıqları xahişnaməyə baxılaraq İrəvan quberniyasının Qars vilayəti və Dövlət əmlakı idarəsindən, İrəvan əkinçilik və Dövlət əkinçilik idarəsindən, İrəvan quberniyası Naxçıvan Meşəbəyliyinin meşəbəyisindən və İrəvan-Qars dövlət əmlakı idarəsinin III rayonunun baş nəzarətçisi tərəfindən yazılan izahatlar qənaətbəxş olmadı və sonda öz dədə-baba torpaqlarımızda əkib-becərmək üçün yadellilərdən icazə istənilsə də buna şərait yaradılmadı. Məsələ ilə əlaqədar yazılan bütün izahatlar hakimiyyət orqanları və rus məmurlarının nəinki Naxçıvanskilər nəslinə qarşı bir kin və qəzəbi, hətta yerli müsəlman əhalisinə qarşı həqarəti əks etdirir və bir daha tarixi düşmənlərimizin iç üzünü açıb göstərir.

Yazılan bu xahişnamələrdən başqa Naxçıvan MR Dövlət Arxivində Naxçıvanskilər soyadının nümayəndələri general Hüseyn xan Naxçıvanskinin və eləcə də onun qardaşları Cəfərqulu xan və Rəhim xanın imzaları ilə İrəvan quberniyasının bir çox kəndlərindən torpaq sahələrinin alınması ilə əlaqədar aktlar, onların notarial qaydada sənədləşməsi ilə bağlı materiallar qorunub saxlanılır [4, v.1,2].

Nəticə. Beləliklə, yuxarıda gətirilən materiallar General Hüseyn xan Naxçıvanskinin istər Rusiya, istərsə də doğma vətəni Naxçıvanda çoxşaxəli və çoxistiqamətli bir həyat sürdüyünü bir daha sübut edir. Doğulub yaşadığı dövrün, mənsub olduğu nəslin övladı olan Xan üçün xırdalıqdan böyüklüyə qədər heç nə yad deyildi. İstedadlı sərkərdə yeri gələndə bacarıqlı iş adamı, xeyirxah vətəndaş, təəssübkeş qardaş, həmyerli olmağı da bacarmışdır.

ƏDƏBİYYAT

1. Cəfərov F., Quliyev M. General Hüseyn xan Naxçıvanski. // "Bizim əsr" qəzeti, 12 yanvar 2003-cü il, № 09 (725).
2. İvanov. R. Əlahəzrətin general-adyutantı. Naxçıvan: "Əcəmi", 2008. - 367s.
3. Quliyev M. Naxçıvanskilər qürbətdə // 525-ci qəzet, 25 aprel 2009-cu il, № 73 (2906).
4. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.9 m., siy. 1, iş 38\39.
5. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.27m., siy. 1, iş 422.
6. Rəhimoğlu M. Zəfər və faciə // "525-ci" qəzet, 1 dekabr 2011-ci il, s.7.

7. Вес Петербург. 1899 год. Адресная и справочная книга Санкт-Петербурга: Санкт-Петербург: - 1899. - 691с.
8. Вес Петербург. 1901 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1901. -913с.
9. Вес Петербург. 1902 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1902. - 932с.
10. Вес Петербург. 1903 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1903. - 972с.
11. Вес Петербург. 1907 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1907. - 936с.
12. Вес Петербург. 1908 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1908. - 988с.
13. Вес Петербург. 1909 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1909. - 1026с.
14. Вес Петербург. 1910 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1910. - 1100с.
15. Вес Петербург. 1917 год. Адресная и справочная книга Санкт-Петербурга. Санкт-Петербург: - 1917. - 930с.
16. В Петербурге состоялось открытие закладного камня памятника генералу Гусейн Хану Нахичеванскому // Каспій, 25 октября 2016, с.10.
17. Гулиев Муса. Ответственная миссия. // Каспій, 21 августа 2016, с.11.
18. За что казнили единственного русского генерала мусульманина: Азербайджанец Гусейн Хан Нахичеванский. // https://kulturologia.ru/blogs/220721/50524/ [10.06.2025].
19. Керзум Андрей Павлович. Мусульманское благотворительное общество в Санкт-Петербурге. // https://encspb.ru/object/2809080575[10.06.2025].
20. Мемедли Эмин. Мусульманин Гусейн Хан Нахичеванский утверждал проект Церкви Святой Ольги. // https://web.archive.org/web/ 20081023123805/http://www.azeri.ru/az/history/340/ [10.06.2025].

ГЮЛЬШАН ГУСЕЙНОВА
Министерство обороны Азербайджанской Республики
Заведующий отделом Военно-исторического музея, д.ф.и.и.

О ГОСУДАРСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ГЕНЕРАЛА ОТ КАВАЛЕРИИ ГУСЕЙН ХАНА НАХЧЫВАНСКОГО

В статье на основе достоверных источников и научной литературы всесторонне исследуется роль кавалерийского генерала Гусейн-хана Нахчыванского в общественно-политической жизни как Российской империи, так и его родины Нахчывана, а также его благотворительная деятельность. Гусейн хан Нахчыванский был не только выдающимся военным деятелем, но и влиятельным общественным деятелем с глубоким интеллектом. Его отношение и подход к религии также весьма примечательны. Несмотря на то, что в среде, где он жил и работал, преобладали люди, принадлежащие к христианской религии, он отличался своим терпимым и справедливым отношением ко всем религиям. Он оказывал одинаковое уважение и заботу солдатам и офицерам, принадлежащим к разным религиям, находящимся под его командованием, и, будучи чутким к религиозным и духовным ценностям, не допускал никакой дискриминации. В этой связи научное изучение общественной деятельности Гусейн-хана Нахчыванского имеет большое значение с точки зрения глубокого понимания общественно-политического ландшафта периода, в котором он жил, и сопоставления этих исторических реалий с современной эпохой.

Ключевые слова: Царская Россия, Нахчыванские, Гусейн хан Нахчыванский, лейб-гвардии конный полк, Мусульманское благотворительное общество.

GULSHAN HUSEYNOVA
Ministry of Defense of the Republic of Azerbaijan
Head of Department of the Military History Museum, d.h.s.

ON THE STATE ACTIVITIES OF THE CAVALRY GENERAL HUSEYN KHAN NAKHCHIVANSKY

The article, based on reliable sources and scientific literature, comprehensively examines the role of cavalry general Huseyn Khan Nakhchivanski in the socio-political life of both the Russian Empire and his homeland Nakhchivan, as well as his charitable activities. Huseyn Khan Nakhchivanski was not only an outstanding military figure, but also an influential public figure with deep intellect. His attitude and approach to religion are also quite remarkable. Despite the fact that the environment in which he lived and worked was dominated by people belonging to the Christian religion, he was distinguished by his tolerant and fair attitude towards all religions. He showed equal respect and care to soldiers and officers of different religions under his command, and, being sensitive to religious and spiritual values, did not allow any discrimination. In this regard, the scientific study of the social activities of Huseyn Khan Nakhchivanski is of great importance in terms of a deep understanding of the socio-political landscape of the period in which he lived and the comparison of these historical realities with the modern era.

Keywords: Tsarist Russia, Nakhchivan, Huseyn Khan Nakhchivansky, Life Guards Cavalry Regiment, Muslim Charity Society.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyun 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Hacı Həsənov, t.e.d. Qabil Əliyev.